## *Qar yağır şəhidlər xiyabanına…*

Qış uyuda bilmir bu oyaq qəmi.
Donub başdaşıtək bir dərdli ana.
Didilmiş gəlinlik paltarı kimi
Qar yağır Şəhidlər xiyabanına.

Yorğun əsgərlərin yuxusu dərin,
Son sözü: "bir içim sərin su verin"!
Örtür yarasını qar şəhidlərin,
Qar yağır Şəhidlər xiyabanına.

Burda ağlayan kim, burda susan kim?
Bizlərdən məhəbbət umub, küsən kim?
Dən düşür torpağın saçına sanki,
Qar yağır Şəhidlər xiyabanına.

Dekabr 1995

Kəsəmənli N. Qar yağır Şəhidlər xiyabanına.: şeir // Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.113.